**İdxal olunan yerfındığı məhsulunda uyğunsuzluğun aşkarlanmasına dair məlumat**
**(11 avqust 2023)**

Tədbirlər çərçivəsində “Buta Çərəz” MMC-nin Hindistan Respublikasından idxal etdiyi ümumi çəkisi 54108 kq yerfındığı (araxis) məhsulundan Agentlik əməkdaşları tərəfindən nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim edilib. Aparılan sınaq nəticəsinə əsasən nümunələrdə Aflatoksin B1-in miqdarının normadan artıq olduğu müəyyən edilib.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq təhlükəli məhsulun gömrük ərazisinin hüdudlarından kənara çıxarılması və ya məhv olunması barədə qərar qəbul edilib.